*Azərbaycan Respublikasının Auditorlar Palatası*
***Şurasının 2003-cü il 13 noyabr tarixli***
***119/2 saylı qərarı ilə təsdiq edilmişdir***

# SƏRBƏST AUDİTORLARIN FƏALİYYƏTİNİ ƏKS ETDİRƏN GÜNDƏLİYİN TƏRTİB EDİLMƏSİNİN

# M Ü V Ə Q Q Ə T İ   Q A Y D A S I

«Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununda təsbit edilmişdir ki, sərbəst auditorlar öz fəaliyyətini əks etdirən gündəlikdən istifadə edirlər. Gündəliyi onların fəaliyyətinə nəzarət və aparılan auditin keyfiyyətinin yoxlanması üçün Auditorlar Palatasına təqdim edirlər.

Gündəlik Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün sərbəst auditorlar tərəfindən tərtib edilir.

Gündəlik hesabat ilinin bütün ayları üzrə tərtib edilir və növbəti ayın 10-dək Auditorlar Palatasına təqdim edilir.

Gündəlik aşağıdakı qaydada doldurulur:

1. «Sıra¹-si» adlı 1-ci sütunda sifarişçilərin adı ardıcıllıqla nömrələnməlidir.
2. «Sifarişçilərin adı» adlı 2-ci sütunda auditor xidməti göstərilən təsərrüfat subyektlərinin adları göstərilməlidir.
3. «Auditor xidmətlərinin növü» adlı 3-cü sütunda sifarişçiyə göstərilən auditor xidmətinin növü göstərilməlidir.
4. Müqavilənin tarixi 4-cü, nömrəsi 5-ci və məbləği (ƏDV-siz) 6-cı sütunlarda göstərilməlidir.
5. «Əhatə olunan dövr» adlı 7-ci sütunda sifarişçiyə göstərilən auditor xidmətlərinin əhatə etdiyi dövr göstərilməlidir.
6. «İcra tarixi» adlı 8-ci sütunda sifarişçiyə göstərilən auditor xidmətinin başlandığı və başa çatdığı tarixlər göstərilməlidir.
7. «Tamamlanmamış iş» adlı 9-cu sütunda sifarişçiyə göstərilən, lakin başa çatmayan auditor xidmətinə sərf olunan müddət saatla göstərilməlidir.
8. «Tamamlanmış iş» adlı 10-cu sütunda sifarişçiyə göstərilən auditor xidmətinə sərf olunan müddət saatla göstərilməlidir.
9. «Cəmi» adlı 11-ci sütunda tamamlanmamış və tamamlanmış işlərə sərf olunan müddətlərin cəmi saatla göstərilməlidir.
10. «Auditor xidmətinin 1 saatının dəyəri» adlı 12-ci sütunda sifarişçi ilə bağlanmış müqavilənin məbləği həmin sifarişçiyə göstərilən auditor xidmətinə sərf olunan saatların cəminə bölünərək, min manatla göstərilməlidir.
11. «Qeyd» adlı 13-cü sütunda gündəliyin doldurulması ilə bağlı bu qaydada nəzərdə tutulmayan qeydlər edilə bilər.
12. Gündəliyin nəticə bölməsi aşağıdakı qaydada doldurulur:

- «Müqavilələrin orta dəyəri» adlı «a» bəndində müqavilələrin ümumi məbləği müqavilələrin sayına bölünərək, min manatla göstərilməlidir;

- «Auditor xidmətinə auditorun sərf etdiyi 1 saatın dəyəri» adlı «b» bəndində müqavilələrin ümumi məbləği auditor xidmətlərinə sərf olunan saatların miqdarına bölünərək, min manatla göstərilməlidir;

- «Bir sifarişçiyə sərf olunan auditor xidmətinin orta müddəti» adlı «c» bəndində auditor xidmətinə sərf olunan saatların miqdarı sifarişçilərin sayına bölünərək, saatla göstərilməlidir.

13. Gündəlik sərbəst auditorun və ya auditorun fəaliyyət göstərdiyi auditor təşkilatının möhürü ilə təsdiq edilməli və tarix göstərilməlidir.

14. Gündəlik Auditorlar Palatasının müvafiq departamentləri tərəfindən qəbul edildikdən sonra təhlil edilməli, sərbəst auditorların və auditor təşkilatlarının maliyyə-təsərrüfat fəaliyyəti və onların apardıqları auditlərin audit standartlarına uyğunluğu yoxlanılarkən həmin gündəliyə əsasən onların işi qiymətləndirilməlidir.